# Səyyad ARAN - 70



Hörmətli Səyyad Aran!

Sizi - tanınmış ictimai-siyasi xadim və yazıçı-publisisti 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 15 yanvar 1952-ci ildə İmişli rayonunun Qaradonlu kəndində müəllim ailəsində doğulmusunuz.

1972-ci ildə o zamankı Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsini bitirərək Aşağı Qaralar (İmişli) orta məktəbində əmək fəaliyyətinə başlamısınız. Hərbi xidmətdən qayıtdıqdan sonra (1973) 1990-cı ilədək 1 saylı İmişli şəhər orta məktəbində pedaqoji fəaliyyətinizi davam etdirmisiniz. Dərs hissə müdiri, tərbiyə işləri üzrə direktor müavini, İmişli rayon XTŞ-nın müdiri vəzifələrində işləmisiniz. Sonra Bakıya gələrək əvvəl AMEA-nın "Elm", sonra isə "Səs" qəzetlərində Baş redaktorun birinci müavini kimi jurnalistika sahəsində çalışmısınız.

Ədəbi yaradıcılığa şeirlə başlamısınız. (1966) Sonra nəsr sahəsində fəaliyyət göstərmisiniz. Müxtəlif illərdə "Körpü" (Gənclik, Bakı, 1983) "Soyuq Günəş" (Təbriz, Bakı 1996), "Aklanma kağıdı" ("Təmizlik kağızı" Türkiyə, İstanbul 2010), "Sandıqda qalan muştuluq" ("Qanun" Bakı 2012), "Sazaq" (Vektor, Bakı 2016), "Başdaşı" (Elm və təhsil, Bakı 2020), "Məzar taşı" (Zengin Yayınçılıq, İstanbul 2020), "Zaloq" (Belqrad CZQR Jovan 2020), "Доход Гейбуллы" (Россия, Ридеро 2021), "Oyanma" (Təbriz, Azər-Turan 2021), "Пармия в менис й Кюлру" (Запорижжия, Украина 2021), "İrəvana gedən yollar" (Elm və təhsil, Bakı 2021) kitablarınız çap edilib. Əsərləriniz rus, fars, serb, türk, Ukrayna, erməni (sovet dövründə) alman, ingilis dillərinə tərcümə edilib.

Siz həm də 1990-2005-ci illərdə aktiv siyasətlə məşğul olmusunuz, Yeni Azərbaycan Partiyasının qurucularından birisiniz, Müstəqil Azərbaycan Respublikasının I və II çağırış Milli Məclisinə deputat seçilmisiniz. 2006-2010-cu illərdə diplomatik sahədə də çalışmısınız. Türkiyənin İstanbul şəhərində Azərbaycanın Baş konsulu vəzifəsində işləmiş, 2009-cu ildə "İlin deputatı" tituluna layiq görülmüsünüz.

"Qızıl qələm", "Tərəqqi" medalı (2005), Beynəlxalq Rəsul Rza mükafatlarını almısınız.

Siz Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının fəxri professorusunuz. Türk dünyası mədəniyyətinə və elminə xidmətlərinizə görə həmin akademiyanın Beynəlxalq "Qızıl ulduz" ordeni ilə təltif olunmusunuz.

Ədəbi tənqidin fikrinə görə Sizin yaradıcılığınız psixoloji nəsrin orijinal nümunələrindəndir. Yaradıcılığınızda zamandan da, zəmanədən də yüksəkdə duran insandır, qəhrəmanlarınız bir qayda olaraq mənəviyyat sahibidirlər. Müstəqillik yollarında ictimai-siyasi və ədəbi fəaliyyətinizi uğur və şərəflə davam etdirirsiniz.

Hörmətli Səyyad müəllim!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**